# "Sahibsiz kölgələr"in fəlsəfəsi

**Salatın Əhmədli,**
**Filologiya üzrə fəlsəfə doktoru, dosent**

**Kainatı nizamda saxlayan neçə-neçə fundamental qanunlar olduğu kimi, bəşəriyyəti də nizamda saxlayan, daim irəli aparan və mənəvi aləmini təzə-tər saxlayan ədəbiyyat və onun da öz qayda-qanunu var. Şübhəsiz ki, ədəbiyyatın silah-sursatı söz, qanunları isə qısa desək, insanı, ümumilikdə bəşəriyyəti kamilləşdirən prinsiplərdir.**

Dünya ədəbiyyatına ümumi nəzər saldıqda insanı və ümumilikdə bəşəriyyəti kamilləşdirən əsərlərin o qədər də çox olmadığının şahidi oluruq. Etiraf etmək lazımdır ki, V.Hüqonun "Səfillər", L.Tolstoyun "Hərb və sülh", C.Londonun "Həyat eşqi", E.Hemenqueyin "Əcəl zəngi", O.Pamukun "Qar", D.Braunun "Da Vinçi şifrəsi", M.S.Ordubadinin "Qılınc və qələm", N.Gəncəvinin "Xəmsə" və s. ədəbiyyat inciləri o qədər də çox deyil. Halbuki, belə əsərlərin insanın kamilləşməsində rolu əvəzsizdir.




"Sahibsiz kölgələr" romanı mürəkkəb quruluşlu və olduqca maraqlı obrazlarla dolu bir əsərdir. S.Qarayevin "Sahilsiz təzadlar" və "Sahibsiz kölgələr" əsərlərini diqqətlə oxuduqdan sonra ədəbiyyat aləmində bu əsərlərin özünəməxsus yeri olduğuna əmin olursan. Çünki hələ heç bir ədəbi əsərdə bu əsərdəkilər kimi yeni elmi ideya və nəzəriyyələrə rast gəlinmir.

Müəllifin hər iki əsərində riyaziyyat, fizika, kimya, biologiya kimi fundamental elmlər, o cümlədən, astronomiya ilə bağlı olduqca maraqlı, düşündürücü və məntiqli fikirlər yer almışdır. "Sahibsiz kölgələr" əsərində isə "Orbitlər" və "Unversal mövcudluq" nəzəriyyələri bütövlükdə verilmiş və əsəri daha da sanballı etmişdir.

"Sahibsiz kölgələr" romanı müəllifin görmək istədiyi, arzu etdiyi kamil insan və əsl vətəndaş obrazları - Çoban, Süleyman, Fəridə, Tusi kimi obrazlar əsərin qəhrəmanlarıdır. Bu obrazların müəyyən fərqli cəhətləri olsa da, onları çox möhtəşəm vətənpərvərlik xüsusiyyəti birləşdirir.

"Sahibsiz kölgələr" romanını oxuduqdan sonra sözün ecazkar qüvvəsi bu əsər haqqında fikirlərimi yazmağa məni sövq etdi.

Çox maraqlı obraz olan Çoban Zalov oxucuya peşəkar çekist, ləyaqətli vətəndaş kimi təqdim olunur. Süleyman Vəliyev XX əsrin ortalarından vətənə ləyaqətlə xidmət edən, yalnız öz xalqını, dövlətini düşünən və milli kadrlar yetişdirən uzaqgörən xüsusi xidmət əməkdaşıdır. Fəridə isə çox möhkəm iradəyə və dözümə sahib, keşməkeşli həyat yaşayan çox mürəkkəb obrazdır. Müəllif bu cür çətin obrazı məharətlə yaratmaqla yanaşı, həm də bu obrazın xarakterini, daxili dünyasını çox ustalıqla aça bilmişdir. Fəridə fiziki, mənəvi, psixoloji gərginliklər, təlatümlər içərisində olsa da, ona tapşırılan işlərin öhdəsindən uğurla gəlir.

Əsərdəki Tusi obrazı sivilizasiyasına görə bəşəriyyətin necə deyərlər, Arximed, Nyuton, İbn Sina, N.Tusi, D.Mendeleyev, A.Eynşteyn, Lütvi Zadə və s. bu kimi dahi və nəhəng alim zirvəsində başa düşülür. Fikrimcə, Tusinin dili ilə müəllif öz yüksək intellektinin məhsulunu "Orbitlər"və "Universal mövcudluq" nəzəriyyələrini oxucuya çatdırır. Bu nəzəriyyələrin mahiyyətini qavramaq isə hər bir oxucuya müyəssər olan iş deyil. Çünki bu nəzəriyyələrin tam mahiyyətini qavramaq, başa düşmək üçün sözün həqiqi mənasında ensiklopedik biliyə və Allahın ən mükəmməl və sonuncu göndərdiyi səmavi kitaba- Qurani -Kərimə kifayət qədər bələd olmaq lazımdır.

Onu da qeyd etmək yerinə düşər ki, bu roman analitik düşüncə, ağıl və xüsusi istedadlara malik olan, öz vətən və dövlətinə sadiq Azərbaycanın xüsusi xidmət orqanı əməkdaşlarına həsr olunan ən iri həcmli əsərdir.

"Sahibsiz kölgələr"i oxuduqdan sonra oxucu bir daha əmin olur ki, dünən də, bu gün də, hətta sabah da vətənimiz və dövlətimiz etibarlı insanlar tərəfindən idarə olunur.

Əsərdəki digər obrazlar - Mərcan, Şəms, Gülər bacıları, Banu, Sara , Valeri, Qaya əsəri daha da oxunaqlı edir.

"Sahibsiz kölgələr"in oxucular tərəfindən böyük maraqla qarşılanacağına şübhə etmirəm. İnanıram ki, əsərdəki yeni elmi nəzəriyyə ümumilikdə insanlığa fayda gətirəcək. Müəllifi isə ədəbiyyata gətirdiyi öz dəsti-xəttini davam etdirərək, yeni əsərlər yaratmağa səsləyirəm.

ədalət.-2017.-22 aprel.-S.14.